# XƏZƏR RAYONUNUN MƏKTƏBLƏRİNDƏ BİLİK GÜNÜ TƏNTƏNƏLİ QEYD EDİLİB

Son illər Xəzər rayonunun sosial-iqtisadi və mədəni quruculuğunda yüksək nailiyyətlər əldə edilmişdir.

Dövlət proqramları çərçivəsində və müxtəlif maliyyə mənbələri hesabına, eyni zamanda Heydər Əliyev Fondunun dəstəyi ilə müxtəlif infrastruktur layihələr həyata keçirilmişdir. Belə ki, daxili yolların inşası, əhalinin elektrik enerjisi, təbii qaz və su təchizatının yaxşılaşdırılması, Mənzil Fondunun saxlanılması, sosial əhəmiyyətli obyektlərin tikintisi, yaşayış məntəqələri və küçələrin abadlaşdırılması ilə yanaşı, təhsil sahəsində də böyük işlər görülmüşdür.

Şüvəlan qəsəbəsində 2 saylı internat məktəbinin və Zirə mədəniyyət mərkəzinin tikintisi, 4 saylı internat məktəbinin, Qala qəsəbəsində GENS dünya akademiyasının, Mərdəkan qəsəbəsində Sərhəd Xidmətinin xüsusi məktəbinin yeni korpusunun, Buzovna qəsəbəsi Albalılıq yaşayış sahəsində, Mərdəkan qəsəbəsində və Binə qəsəbəsində uşaq bağçalarının tikintisi rayonun mədəni həyatında əhali tərəfindən əlamətdar hadisə kimi qarşılanmışdır. Bütün bunların nəticəsi olaraq 15 sentyabrda yeni dərs ilinin başlanması rayonun bütün orta məktəblərində Bilik günü kimi təntənəli şəkildə qeyd edilmişdir. Xəzər Rayon İcra Hakimiyyəti başçısının müavinləri və şöbə müdirləri məktəblərdə olmuş, yeni dərs ilinin başlanması münasibətilə müəllim və şagirdləri təbrik etmiş, onlara yeni dərs ilində uğurlar arzulamışlar.



Binə qəsəbəsindəki 149 saylı tam orta məktəbdə təşkil olunan tədbirdə iştirak edən rayon icra hakimiyyəti başçısının birinci müavini Vaqif Həsənov çıxış edərək bildirmişdir ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş təhsil strategiyası bu gün uğurla davam etdirilir. Gənc nəslin lazımi səviyyədə təhsil alması, savadlı və hərtərəfli dünyagörüşünə malik olan vətəndaşlar kimi formalaşması dövlətimizin xüsusi diqqətlə yanaşdığı əsas məsələlərdəndir. V.Həsənov müəllimlərin və şagirdlərin diqqətinə çatdırmışdır ki, bu gün Azərbaycan təhsili böyük inkişaf dövrünü yaşayır. Son 10 ildə respublikada iki mindən çox müasir tələblərə cavab verən məktəblər inşa edilmişdir. Bir çox məktəblərdə əlavə korpuslar tikilmiş, əsaslı təmir işləri həyata keçirilmişdir.

V.Həsənov onu da bildirmişdir ki, təhsil müəssisələrinin əksəriyyətində maddi-texniki bazanın möhkəmləndirilməsi diqqət mərkəzində saxlanılır, müntəzəm olaraq yeni məktəblərin tikintisi, əlavə korpusların inşası, onların müasir avadanlıqlarla təchiz olunması respublikada infrastrukturun yenilənməsinə bariz nümunədir.

V.Həsənov çıxışının sonunda xüsusi olaraq qeyd etmişdir ki, təhsilin yüksək səviyyədə inkişafında Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır.

Bütün bu uğurlar təhsilin dövlət siyasətinin əsasını təşkil edir və daim diqqətdə saxlanılır.

**Kamal İBADOV,**
**"Respublika".**